**“Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək” layihəsi**

# “Xarici investisiyaların qorunması haqqında” Azərbaycan Respublikasının qanununun təkmilləşdirilməsi

mövzusunda tədqiqat yazısı

**Tədqiqatın müəllifi:**
Qubad İbadoğu,
iqtisad elmləri üzrə fəlsəfə doktoru

**Bakı - 2015**

**Xülasə**

Azərbaycan iqtisadiyyatının son durumu və qərarlaşmış yeni tendensiyalar və çağırışlar xarici investisiyanın ölkə iqtisadiyyatı üçün  əhəmiyyətini daha da artırmışdır. Hazırda milli iqtisadiyyata xarıcı sərmayənin cəlb edilməsi ölkə hökümətinin qarşısında duran həlli vacib məsələlərdən hesab olunur. Bu istiqamətdə görüləsi ən vacib işlərdən biri xarici investorlar üşün milli rejimin formalaşdırılmasıdır. Bu yazıda  əlverişli investisiya mühitinin formalaşdırılması üçün hüquqi bazarın təkmilləşdirilməsi məqsədilə mövcud qanunvercilik təhlil edilir  və  xarici investorlar üçün dövlət təminatları dəyərləndirilir. Analitik yazı eyni zamanda xarici investisiya mühitinin yaxşılaşdırılması istiqamətində təkliflər təqdim olunur.

**Açar sözlər:** xarici sərmayə, hüquqi  rejim, dövlət təminatları

## Qısaltmalar

AR - Azərbaycan Respublikası

ABŞ – Amerika Birləşmiş Dövlətləri

Aİ- Avropa İttifaqı,

AİB- Asiya İnkişaf Bankı

AYİB- Avropa Yenidənqurma və İnkişaf Bankı

BMK- Beynəlxalq Maliyyə Korporasiyası

BMT - Birləşmiş Millətlər Təşkilatı

BVF- Beynəlxalq Valyuta Fondu

BXİ - Birbaşa xarici investisiyalar

DB- Dünya Bankı

DM - Dövlət müəssisəsi

DTT - Dünya Ticarət Təşkilatı

GUAM – Gürcüstan, Ukrayna, Azərbaycan və Molova

FIAS - Dünya Bankının Xarici İnvestisiyalar üzrə Məsləhət Xidməti

HPB – Hasilatın Pay Bölgüsü

QDİƏT- Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı

İƏT – İslam Əməkdaşlıq Təşkilatı

İİB- İslam İnkişaf Bankı,

İƏİT - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı

MDB - Müstəqil Dövlətlər Birliyi

**Mündəricat**

Giriş

İ. Xarici investisiya qoyuluşunun müasir durumu

II**.** Xarici investisiyalar üzrə hüquqi rejimin qiymətləndirilməsi

III. Xarici investorlar üçün təminatların dəyərləndirilməsi

IV. Xarici investisiların qorunması haqqında Qanunun təkmilləşdirilməsi üzrə tövsiyələr

*İstifadə olunmuş ədəbiyyatların siyahısı*

**Giriş**

Milli iqtisadiyyata investisiyaların cəlb olunması, xarici investisiyaların təşviqi vasitəsilə sahibkarlığın inkişafına yönəlmiş dövlət siyasəti dayanıqlı iqtisadi artımın əsas şərtlərindən sayılır. Odur ki, xarici şirkətlər və beynəlxalq təşkilatlarla səmərəli və davamlı investisiya əməkdaşlığı üçün lazım olan hüquqi, institutsional və iqtisadi mühitin formalaşdırılması hər bir hökümətin qarşısında duran həlli vacib məsələlərindən hesab olunur. Bu məqsədlə dövlət müvafiq hüquqi və normativ baza formalaşdırır, institutlar yaradır və rəqabətli biznes mühitinə dəstək verir. Azərbaycan Respublikasında xarici investorlara verilən dövlət təminatları ilk növbədə milli qanunvericiliklə tənzimlənir. Bu məqsədlə hələ 15 yanvar 1992-ci ildə "Xarici investisiyaların qorunması haqqında" və 13 yanvar 1995-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur.

Lakin, Azərbaycan Respublikasında xarici investorlara verilən təminatlar milli qanunvericiliklə yanaşı ölkəmizin ratifikasiya etdiyi çoxtərəfli müqavilələrlə də tənzimlənir. Xarici dövlətlərlə imzalanmış qarşılıqlı müdafiə və təşviqə dair ikitərəfli sazişlər də xarici investorların əlavə müdafiəsi xarakteri daşıyır. Hazırda Azərbaycan Respublikası ilə dünyanın müxtəlif ölkələri arasında 30-dək bu tip müqavilələr imzalanmışdır, Azərbaycan Respublikası hökümətі ilə dünyanın 53 ölkəsinin hökümətləri arasında müştərək və ya hökümətlərarası dövlət komissiyası yaradılmışdır.[1] MDB dövlətləri çərçivəsində hətta ikitərəfli müqavilələrdən savayı kapital qoyuluşlarının qarşılıqlı müdafisəi və stimullaşdırılmasına dair 2 çoxtərəli konvesiya da imzalanmışdır. Bu sənədlərə 24 dekabr 1993-cü ildən qüvvədə olan investisiya sahəsində əməkdaşlığa dair saszişi və 28 mart 1997-ci ildə imzalanmış investorların müdafiəsi barədə konvensiyanı aid etmək olar.

Bundan da əlavə, ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların artırılması və stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası BMT, Ümumdünya Ticarət Təşkilatı, Avropa İttifaqı, MDB, GUAM, İƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası kimi beynəlxalq iqtisadi təşkilatlarla və maliyyə qurumları ilə də əməkdaşlıq edir.

---

[1] http://economy.gov.az/index.php?option=com_content&view=article&id=272&Itemid=162&lang=az

Lakin Azərbaycan Respublikasında xarici investorların hüquqlarının təmini üçün ən vacibi milli rejimin formalaşdırılması hesab olunur. Bu rejim Azərbaycan Respublikası ərazisinə xarici investisiyaların cəlb edilməsinə və tətbiqinə təminat verir. Bu təminat həmçinin Xarici investisiyaların qorunması haqqında" və "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə yanaşı, hər şeydən əvvəl Mülki Məcəllə, Vergi Məcəlləsi, Gömrük Məcəlləsi, Valyuta tənzimi haqqında qanun və digər qanunvericilik aktları ilə də təsbit olunur.
Bu sahəni tənzimləyən başlıca qanun olaraq "Xarici investisiyaların qorunması" haqqında Azərbaycan Respublikasının qanunu Azərbaycan Respublikasının ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsiplərini müəyyən edir. Qanun xarici investorların hüquqlarının müdafiəsini təmin edir. Eyni zamanda müvafiq qanun xarici investorları Azərbaycan Respublikasında əlaqədar qanunvericiliyin dəyişdirilməsindən qaynaqlanan təsirlərdən sığortalayır və onlara bununla bağlı bəzi təminatlar verir. Qloballaşmanın tələbləri və rəqabət mühitinin sərtləşməsinin nəticəsi olaraq olaraq "Xarici investisiyaların qorunması" haqqında Azərbaycan Respublikasının qanunu daim təkmilləşdirilir. Odur ki, bu qanuna ötən illər ərzində dəfələrlə əlavə və dəyişikliklər edilmişdir.[2]

[2] 7 aprel 1992-ci il tarixli, 97 nömrəli; 5 noyabr 1996-cı il tarixli, 188-IQD nömrəli; 23 mart 2001-ci il tarixli, 103-IIQD nömrəli; 5 oktyabr 2001-ci il tarixli, 190-IIQD nömrəli; 23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli; 30 aprel 2002-ci il tarixli, 317-IIQD nömrəli; 3 dekabr 2002-ci il tarixli, 385-IIQD nömrəli; 10 iyun 2005-ci il tarixli, 925-IIQD nömrəli; 6 mart 2007-ci il tarixli, 260-IIIQD nömrəli; 9 oktyabr 2007-ci il tarixli, 429-IIIQD nömrəli; 9 oktyabr 2007-ci il tarixli, 430-IIIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə.

## 1. Xarici investisiya qoyuluşunun müasir durumu

Xarici investorlar Azərbaycan Respublikası ərazısındə fəaliyyətlərinə dövlət qeydiyyatından keçməklə başlayırlar. Mövcud qanunvericiliyə görə, xarici hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının ərazisində mövcud olan bütün müəssisələrin səhm və digər qiymətli kağızlarını satın ala bilər, dövlət və bələdiyyə müəssisələrinin özəlləşdirilməsində iştirak edə bilərlər. Praktik olaraq Azərbaycan Respublikasında xarici investorların biznes fəaliyyətinə başlaması üçün mühüm məsələlərdən biri olan hüquqi şəxslərin dövlət qeydiyyatına alınması proseduru son zamanlar xeyli sadələşdirilmiş, bu sahədə əvvəllər mövcud olmuş problemlər "Vahid pəncərə" prinsipi tətbiq edilməklə aradan qaldırılmışdır. Qeyd etmək lazımdır ki, xarici investisiyalı müəssisələr Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağan olunmamış hər hansı fəaliyyət növü ilə məşğul ola bilərlər. Xarici investisiyalı müəssisə dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs statusu alır. Xarici investisiyalı müəssisələrin dövlət qeydiyyatına alınması haqqında məlumat dövlət reyestrinə daxil edilir. Xarici investisiyalı müəssisəni dövlət qeydiyyatına almaqdan yalnız o halda imtina edilə bilər ki, belə müəssisənin yaradılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun gəlməsin, yaxud qeydiyyat üçün zəruri sənədlər müəyyən edilmiş tələblərə cavab verməsin, habelə nizamnamədə nəzərdə tutulan fəaliyyət növləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilmiş olsun. Xarici investisiyalı müəssisə dövlət qeydiyyatına alınmaqdan imtina olunduqda təsisçilər bununla bağlı Azərbaycan Respublikası məhkəmələrinə şikayət edə bilərlər. Xarici investorlara dövlət dəstəyi Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən həyata keçirilir. Azərbaycanın iqtisadiyyatına investisiyaların cəlb edilməsinin ən mühüm vasitələrindən biri dövlət mülkiyyətinin özəlləşdirmədir ki, xarici şirkətlər bu prosesdə də iştirak edə bilərlər. Bununla əlaqədar olaraq, mövcud özəlləşdirmə qanunvericiliyində xarici şirkətlərin bu prosesdə iştirakının qaydaları nəzərdə tutulmuşdur. Rəsmi statistik məlumatlar göstərir ki, Azərbaycanda indiyədək həyata keçirilən özəlləşdirmə prosesində Türkiyə, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya, Çin, İran, İsveçrə, Hollandiya və digər ölkələrin investorları iştirak edərək, müəssisələrin səhmlərinin bir hissəsinə malik olmuş və bu yolla ölkə iqtisadiyyatına investisiyalar qoymuşlar. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə yeni sahələrin, o cümlədən xarici investorlar üçün xüsusilə cəlbedici olan metallurgiya, kimya,

energetika, maşınqayırma, nəqliyyat, rabitə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin özəlləşdirməyə açılması xarici investisiya axınına güclü təkan vermişdir.

İnvestisiyalarla əlaqəli qanunvericilikdə aparılmış son təkmilləşdirmələrlə xarici investorun Azərbaycandakı fəaliyyətindən əldə etdiyi mənfəətin başqa valyutalara konvertasiya edilməsi, xarici ölkələrə köçürülməsi, yaxud reinvestisiya edilməsi ilə bağlı əvvəllər mövcud olmuş məhdudiyyətlər ləğv edilmiş, bazar iqtisadiyyatı prinsipləri əsasında xarici investora bu məsələlərə dair sərbəst qərar qəbul etmək hüququ verilmişdir. Bu tədbirlər xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların Azərbaycana olan marağını daha da artırmışdır.

1995-2014-cü illərdə ölkə iqtisadiyyatına yönəldilmiş 156 milyard dollar investisiyanın 37 faizi, yəni 58 milyard dollara qədəri xarici investorlar tərəfindən həyata keçirilmişdir. Təbii ki, ölkəyə xarici investisiyaların cəlb edilməsi sahəsində əldə edilmiş uğurlarda neft strategiyasının böyük əhəmiyyəti olmuşdur. 1994-cü ildə nüfuzlu xarici neft şirkətləri ilə imzalanmış «Əsrin müqaviləsi» və digər hasilatın pay bölgüsü kontraktları çərçivəsində 1995-2013-cü illərdə Azərbaycanın neft-qaz sektoruna təqribən 51,6 milyard ABŞ dolları məbləğində sərmayə qoyulub. Göründüyü kimi, milli iqtisadiyyata cəlb olunan xarici investisiyalar əsasən neft-qaz bölməsinə yönəldilib. Bu sektora yönələn sərmayələr Hasilatın Pay Bölgüsü (HPB) sazişləri ilə tənzimlənir. Bu sazişlər parlament tərəfindən ratifikasiya olunaraq Konsitutsiya aktı səviyyəsinə qaldırılıb.

Ümumilikdə isə xarici dövlətlər və beynəxalq təşkilatlarla qarşılıqlı və səmərəli əməkdaşlıq nəticəsində Azərbaycan Respublikasının yenidən müstəqillik qazandığı dövrdə milli iqtisadiyyata yönəldilən 200 milyard dollar investisiyanın[3] 180 milyardı və ya 90%-i son 10 ilin payına düşür.[4] Rəsmi statistik məlumatlara görə, 1995-2014-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 155 milyard 962 milon dollar olub. Bu investisiyaların 37 faizindən çoxu, yəni 58 milyard 293 milyon dollara yaxını xarici investisiyalar olmuşdur.

Əgər 1995-2002-ci illərdə xarici investisiyaların həcmi bütövlükdə 9 milyard dollar olmuşdursa, 2003-2014-cü illərdə bu rəqəm 5,5 dəfə artaraq 49,2 milyard dollar təşkil edib. 2014-cü ildə ölkə iqtisadiyyata bütün mənbələr hesabına 27,7 milyard dollar investisiya qoyulub ki, onun da

---

[3] http://economy.gov.az/index.php?option=com_content&view=article&id=322:olke-iqt-yon-inv&catid=42:foreign-investments&Itemid=196&lang=az

[4] http://az.apa.az/news/367092

41,5 faizi və ya  11,5 milyard dolları xarici sərmayənin payına düşüb. Həmin il ərzindən xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas vəsaitlərə yönəldilmiş investisiyalar Böyük Britaniya, Norveç, Türkiyə, ABŞ, Fransa, İran, Rusiya və Yaponiya sərmayədarlarına məxsus olmuşdur.[5]

HPB sazişləri ilə tənzimlənməyən, lakin iqtisadiyyatın digər bölmələrinə yatırılan sərmayələr Xarici investisiyaların qorunması” haqqında Azərbaycan Respublikasının qanunu ilə yanaşı “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu  ilə  də  tənzimlənir.
Bu Qanun  Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirir. Qanun investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilib və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Qanuna əsasən dövlət investisiya fəaliyyətinin həyata keçirilməsi şərtlərinin sabitliyinə, onun subyektlərinin hüquqlarının və qanuni mənafelərinin qorunmasına təminat verir. İnvestisiya fəaliyyətinin subyektləri arasında bağlanmış müqavilənin şərtləri bu müqavilənin bütün müddəti ərzində və hətta o bağlandıqdan sonra qanunvericiliklə subyektlərin vəziyyətini pisləşdirən və ya hüquqlarını məhdudlaşdıran şərtlər müəyyən edildikdə belə, əgər onlar müqavilə şərtlərinin dəyişdirilməsi barədə razılığa gəlməyiblərsə, qüvvəsini saxlayır. Qanunla dövlət orqanları və onların vəzifəli şəxsləri qanunvericiliklə yol verilən və onların səlahiyyətinə daxil olan hallardan başqa, investisiya fəaliyyəti subyektlərinin işinə qarışa bilməzlər.  Qanunla müəyyənləşdirilən müvafiq hallardan başqa, investisiya qoyulan obyektlərin seçilməsində investorların hüquqları məhdudlaşdırıla bilməz. Dövlət orqanları və başqa orqanlar investorların və investisiya fəaliyyətinin digər subyektlərinin hüquqlarını pozan aktlar qəbul etdikdə investisiya fəaliyyəti subyektlərinə dəyən zərəri bu orqanlar tam həcmdə ödəməlidirlər. Zərərin ödənilməsi barədə mübahisələrə aidiyyatı üzrə məhkəmə baxır. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tələblərə və ya investisiya fəaliyyətinin subyektləri arasında bağlanmış müqavilə öhdəliklərinə əməl olunmadıqda tərəflər həmin aktlarla müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi

---

[5] http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item/7327-2014-dzu-ildae-oelkaenin-sosial-iqtisadi-inkishafi

zamanı yaranan mübahisələrə müvafiq olaraq məhkəmə, iqtisad məhkəməsi və ya münsiflər məhkəməsi baxır.

Məlum olduğu kimi, biznes mühitinin ən mühüm şərtlərindən biri vergi rejimi ilə bağlıdır. İnvestora münasibətdə vergi münasibətləri Azərbaycan Respublikasının 11 iyul 2000ci il tarixli 905IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" ilə tənzimlənir.[6] Qeyd etmək lazımdır ki, son illərdə vergilərin dərəcəsinin və sosial sığorta ödənişlərinin aşağı salınması istiqamətində də müəyyən addımlar atılmışdır. 1998-ci ildən etibarən ölkədə vergi dərəcələri ardıcıl olaraq endirilir. Belə ki, müəsisə və təşkilatların mənfəət vergisini dərəcəsinin 35%-dən 20%-ə, eləcə də ƏDV-nin dərəcəsinin 28%-dən 18%-dək, fiziki şəxslərin gəlirlərindən tutulan vergilərin dərəcələrinin maksimum həddinin 55%-dən 35%-dək, sosial sığorta ayırmalarının 40 faizdən 22 faizədək endiirlməsi, bir sıra vergilərin ləğv edilməsi nəticəsində dövlət vergilərinin sayının 15-dən 9-dək azaldılması, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi və s. bu kimi investoların vergi yükününü azaldılmasına xidmət edən tədbirlər əsasən son illərdə reallaşdırılmışdır. Bununla yanaşı vergi inzibatçılığı təkmilləşdirilmiş və bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, habelə investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalamışdır.

Gömrük orqanlarının da fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, proseduraların daha da sadələşdirilməsi və şəffaflaşdırılması məqsədilə Azərbaycan Respublikasının 24 iyun 2011-ci il tarixli, 164-IVQ nömrəli Qanunu ilə təsdiq edilmiş Gömrük Məcəlləsi qəbul edilmişdir[7]. «Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında» prezident fərmanı isə çoxpilləli iqtisadi fəaliyyətə başlama prosedurlarının sadələşdirilməsini, bu sahədə mövcud olan bürokratik əngəllərin, aradan qaldırılmasını nəzərdə tutur. Fərmana əsasən, müvafiq dövlət qurumları vahid kodlaşdırma sistemi tətbiq olunur, eyni zamanda sahibkarlıq subyektlərinin fəaliyyəti «bir pəncərə» prinsipi əsasında təşkil olunur. Bu fərman ölkədə sahibkarlığın inkişafına əngəl olan maneələrin aradan qaldırılması üçün prinsipial əhəmiyyətə malikdir. Eyni zamanda daxili bazarda rəqabət mühitinin inkişaf etdirilməsi, təbii inhisarçıların məhsullarının və xidmətlətinin tarif tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2005-ci il tarixli 341 nömrəli Fərmanı ilə "Azərbaycan

[6] http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=3
[7] http://customs.gov.az/addons/qanun/uploads/mecelle_yeni_.pdf

Respublikasının Tarif Şurası"nın Əsasnaməsi təsdiq edilmişdir. Şuranın Əsasnaməsinə[8] uyğun olaraq, İqtisadiyyat və Sənaye Nazirliyində müvafiq Katiblik və onun tərkibində müxtəlif sahələri əhatə edən 12 işçi qrupu fəaliyyət göstərir. Ölkədə lisenziyalaşdırma sisteminin sadələşdirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkədə mövcud olan lisenziyalaşdırma sistemi köklü surətdə dəyişmiş, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirilmiş, lisenziyanın müddəti isə 2 ildən 5 ilə qədər uzadılmışdır.

Aparılmış araşdırma göstərir ki, milli iqtisadiyyata xarici investisiya qoyuluşunun həm sahə strukturunda, həm regional və həm də illər üzrə dinamikasında disproporsilayalar mövcuddur. Belə ki, ölkənin neft sektoru investisiyaları daha çox cəlb etdiyindən onun sahə və regional strukturu ilə yanaşı dinamikasına da neqativ təsir göstərmişdir. Odur ki, bu sahədə dövlət siyasətinin əsas hədəflərinə regionların coğrafi şəraitinə uyğun olaraq onlar arasında investisiyaların bölüşdürülməsinin təmin edilməsi (regionlar arasında investisiyaların bölüşdürülməsinin optimallaşdırılması); ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin genişləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyinin artırılmasına nail olunması; kənd təsərrüfatı istehsalının strukturunun təkmilləşdirilməsinə investisiya proqramının köməyi ilə yardım edilməsi; xarici ticarət rejimində təkmilləşdirmələr aparmaqla özəlləşdirilmiş müəssisələrin texnoloji cəhətdən yenidən qurulması üçün müasir texnologiyanın ölkəyə gətirilməsinə əlverişli vergi mühitinin yaradılması; birbaşa xarici invesitisiyaların istehsala yönəldilməsinin vergi mexanizmləri vasitəsilə stimullaşdırılması; daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlü və əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrə yönəldilməsi; restruktruzasiya prosesinin davam etdirilməsi yolu ilə yerli müəssisələrin investisiya cəlbediciliyinin artırılması; investisiyaların vergi tənzimlənməsi istiqamətində qanunvericilik bazasının daha da təkmilləşdirilməsi daxildir.

Azərbaycan Respublikasının 2016-cı il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinin icmalında[9] göstərilir ki, Azərbaycan Respublikası hökümıto 2016-2019-cu illərdə ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla

[8] http://www.tariffcouncil.gov.az/?/az/content/100
[9] http://economy.gov.az/index.php?option=com_content&view=article&id=1711&Itemid=286&lang=az

yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi istiqamətində tədbirlər davam etdiriləcəkdir.

Göründüyü kimi, mövcud problemlərin həlli həmçinin yaxın gələcəkdə investisiya mühitinin huquqi və insitutsional akpektlərinin təkimlləşdilməsindən keçir. Artıq Azərbaycan Hökumətinin müraciəti ilə Beynəlxalq Maliyyə Korporasiyasının dəstəyi əsasında Dünya Bankının Xarici İnvestisiyalar üzrə Məsləhət Xidməti (FIAS) Azərbaycanda investisiya mühitinin monitorinqini aparmış və mühitin daha da yaxşılaşdırılması məqsədilə birgə tədbirlər planı müəyyənləşdirilmişdir. Həmin tədbirlərin icrası istiqamətində atılmış ilk addımlardan biri də Azərbaycanda İnvestisiyaların Təşviqi və Məsləhət Fondunun təsis edilməsi olub. Fondun məqsədi münbit investisiya mühitini müəyyənləşdirən şərtlər sisteminin təşkilindən, sahibkarlığın ümumi mədəniyyətinin artırılmasından, habelə investisiya fəaliyyətinin informasiya təminatının möhkəmləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsindən, bu sahədə fəaliyyət göstərən digər qurumların dəstəklənməsindən, onlarla sıx əməkdaşlıq münasibətlərinin qurulmasından ibarətdir[10].

Bununla belə, Dünya Bankının ekspertləri ilə birgə «İnvestisiya fəaliyyəti haqqında» və «Xüsusi İqtisadi Zonalar haqqında» qanun layihələri hazırlanmışdır. «İnvestsiya fəaliyyəti haqqında» yeni qanun hazırda qüvvədə olan «İnvestisiya fəaliyyəti haqqında» və «Xarici investisiyaların qorunması haqqında» iki qanunu əvəz edə bilər. Belə bir təcrübə artıq Qazaxıstanda və Belarusda istifadə olunmuşdur. Qazaxıstanda investisiya fəaliyyəti 27 dekabr 1994-cü ildə qəbul olunmuş "Xarici investisiyalar haqqında" və 28 fevral 1997-ci ildə qəbul olunmuş "Dövlətin birbaşa investisiyaları müdafiəsi haqqında" qanunları əsasında tənzimlənirdi. 8 yanvar 2003-cü ildə qəbul olunmuş "İnvestisiyalar haqqında" qanun isə Qazaxıstanın əlverişli investisiya mühiti formalaşdırılmasına daha əlverişli şərait yaratmışdır. Bu qanunun əsas xüsusiyyəti həm yerli, həm də xarici investorlar üçün bərabər şərtlərin, vahid zəmanətin və imtiyazların verilməsidir. Yeni qanun həm də yuxarıda göstərilən qanunları əhatə etdiyindən iki hissədən ibarətdir. Birinci hissə investisiyaların hüquqi tənzimlənməsini, ikinci hissə isə dövlətin investisiyaları müdafiəsi ilə bağlı münasibətlərin tənzimlənməsini müəyyən edir. Belarusda isə 9 oktyabr 2001-ci ildən qüvvəyə minmiş İnvestisiya Məcəlləsi yalnız "Xarici investisiyalar haqqında" və "Belarus Respublikası ərazisində investisiya fəaliyyəti haqqında" qanunlarını əvəz

---

[10] http://vergiler.az/art-view/3003/

etmiş, həm də investisiya fəaliyyətini tənzimləyən yeni normaları müəyyən etmişdir. Bu qanunda da yerli və xarici investorlara bərabər hüquqi şərtlərin və zəmanətlərin verilməsi nəzərdə tutulmuşdur. İnvestisiya fəaliyyəti əsasən yüksək texnologiyalı məhsulları istehsal edən sahələrə yönəldilir. Məcəllə yerli istehsalın dövlət tərəfindən himayə edilməsinin əsasını təşkil edən normaları da müəyyən etmişdir. Beləliklə, məcəllədə innovasiya istiqamətli sənaye sektorunun himayə edilməsi təsbit olunmuşdur.

Göründüyü kimi, Azərbaycanda "İnvestisiyalar haqqında" vahid, baza qanunvericiliyinin yaradılması və bu sənəddə hər iki mövcud qanunlardan fərqli olaraq beynəlxalq təcrübənin ən mükəmməl elementlərinin təsbit olunmalıdır. Digər ölkələrin bu sahədə olan təcrübəsini əsas götürərək "İnvestisiyalar haqqında" vahid, baza qanunvericiliyinə investisiyaların qorunması, investisiya fəaliyyəti zamanı yaranan mübahisələrin həlli və digər həlledici prinsipial məsələlər ilə bağlı yeniliklər daxil edilməlidir. Bu isə mövcud qanunvericiliyin zəif nöqtələrinin aşkar edilməsindən və bütövlükdə xarici investisiyaların hüquqi əsaslarının təkmilləşdirilməsindən keçir. Odur ki, ilk növbədə "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması" haqqında Azərbaycan Respublikasının qanununu şərh edək.

## 2. Xarici investisiyalar üzrə hüquqi rejimin qiymətləndirilməsi

Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin (sərmayədarlığın) ümumi sosial, iqtisadi və hüquqi şərtləri və xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsipləri müvafiq olaraq "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilir. Bu qanunda təsbit olunmuş, lakin təkmilləşdirmə imkanları hələ də qalan aşağı istiqamətlərə diqqət yetirək.

**Xarici investorların və xarici investisiyaların formaları.** Qanunun 2-ci maddəsində xarici investorlar, 3-cü maddəsində isə xarici investisiya və onun qoyulması formaları müəyyənləşdirilib. 2-ci maddəyə görə, Azərbaycan Respublikasında xarici investorlar aşağıdakılar ola bilər:

a) xarici hüquqi şəxslər;

b) xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daimi yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları; bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar;

v) xarici dövlətlər;

q) beynəlxalq təşkilatlar

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) hazırladığı "Birbaşa xarici investisiyalar üzrə izahatlar, nəzarət parametrləri" adlı 4-çü nəşrdə[11] aşağıdakılar investorlar kimi təqdim olunur:

- fərdlər;
- fərdlərlə əlaqəli qruplar ;
- müəssisə və onun struktur vahidləri;
- dövət və özəl müəssisələr;
- qohum müəssisələrin qrupu;
- dövlət orqanı;
- əmlak, etibar və ya cəmiyyətin digər təşkilatları;
- yuxarıda sadalananların istənilən kombinasiyası.

Qanunun 3-cü maddəsinə görə, xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı yolla investisiya qoya bilərlər:

---

[11] http://www.oecd.org/daf/inv/investmentstatisticsandanalysis/40193734.pdf

- Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə, təşkilatlarda payçılıq iştirakı;
- Tamamilə xarici investorlara məxsus olan müəssisələr yaradılması;
- Müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;
- Torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi;
- Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.

Beynəlxalq təcrübədə investisiyaların formaları investorların sərmayə qoymaq hüququ kimi tanınır və onların aşağıdakı formaları təsbit olunur:

- Tərpənməz (daşınmaz) və tərpənən (daşınan) mülkiyyət, həmçinin bu mülkiyyət növləri üzərində əmlak hüququ;
- Şirkətlərdə və ya müəssisələrdə səhm, qoyuluşlar və digər formalarda iştirak hüququ;
- Kapital qoyuluşu ilə əlaqəli iqtisadi sərvətlərin yaradılması üçün qoyulmuş pul vəsaitləri üzrə tələb hüququ;
- Müəlliflik hüququ, sənaye mülkiyyəti (kəşflər, əmtəə nişanları, xidmət nişanları, sənaye nümunələri və modelləri), texnologiylar və nou-haular üzərində hüquq;
- Kəşfiyyat, axtarış, hasilat və istismarla əlaqəli müqavilələr və ya qanunlar üzrə iqtisadi, həmçinin kommersiya fəaliyyətlərinin həyata keçirilməsinə görə hüquqlar.

Hesab edirik ki, İƏİT-nın və eyni zamanda beynəlxalq təcrübənin tələbləri əsasında mövcud qanunvericilikdə təsbit olunmuş xarici investorların və xarici investisiyaların formaları təkmilləşdiirlməlidir.

**Dövlətsizləşdirmədə və özəlləşdirmədə xarici investorların iştirakı.** Bu Qanunun 4-cü maddəsi ilə tənzimlənir. Həmin maddəyə görə, *xarici investorlar dövlət və bələdiyyə müəssisələrinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özəlləşdirilməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən şərtlərlə və qaydada iştirak edə bilərlər.*

Bu maddədə nəzərdə tutulan şərtlər və qaydalar mərkəzi icra hakimiyyəti tərəfindən müəyyənləşdirildiyinə görə, praktika göstərir ki, bu maddə bir çox hallarda xarici investorlara dövlət müəssisələrinin özəlləşdirilməsində iştirakına baryerlər yaratmağa gətirib çıxarır. Azərbaycanda 1995-ci ildən başlayan kiçik və orta müəssisələrin özəlləşdirilməsi və iri müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi zamanı da xarici investorların özəlləşdirmədə imkanı opsionlar[12] vasitəsilə tənzimlənərək qismən məhdudlaşdırılmış və özəlləşdirmə qaydaları ilə bu prosesi tənzimləyən mərkəzi icra hakimiyyəti xarici investorlara qarşı diskriminasiyalara yol verilmişdir.

Odur ki, təklif edirik ki, Qanunun 4-cü maddəsində xarici investorların özəlləşdirmədə iştirakı halları və istisnalar açıq şəkildə təsbit olunsun. İndki redaktədə onların iştirakı ilə bağlı qərarın qəbul edilməsi hüququnun mərkəzi icra hakimiyyətinin səlahiyyətinə verilməsi praktiki olaraq onlarında dövlətsiləşdirmə və özəlləşdirmə prosesindən kənarlaşdırılmasına gətirib çıxarır.

**Xarici investisiya üçün ərazi məhdudiyyətləri**

Qanunun 7-ci maddəsində göstərilir ki, *Azərbaycan Respublikasının qanunvericilik aktları ilə elə ərazilər müəyyən edilə bilər ki, müdafiənin, milli təhlükəsizliyin, ətraf təbii mühitin və əhalinin müdafiəsinin təmin olunması mülahizələrinə görə bu ərazilərdə xarici investisiyalı müəssisələrin fəaliyyəti məhdudlaşdırılsın və ya qadağan edilsin.*

İƏİT-nın adı yuxarıda çəkilən təlimatında[13] xarici investorun sərbəst fəaliyyət göstərə biləcəyi iqtisadi ərazi[14] terminindən istifadə olunur. İqtisadi ərazi bütövlükdə ölkə ərazisi və ya onun bir hissəsi də ola bilər. Lakin istənilən halda iqtsadi ərazidə xarici investorun hərəkətinə məhdud qoyula bilməz.

---

[12] Özəlləşdirmə opsionunu – xarici investorlara özəlləşdirmə üçün lazım olan özəlləşdirmə çeklərinin alınmasına hüquq verən qiymətli kağız növüdür.
[13] http://www.oecd.org/daf/inv/investmentstatisticsandanalysis/40193734.pdf
[14] İqtisadi ərazi dedikdə Azad İqtisadi Zonalar nəzərdə tutulmur.

### 3. Xarici investorlar üçün təminatların dəyərləndirilməsi

**Qanunvericiliyin qeyri-əlverişli şərtlərlə dəyişməsinə qarşı təminatlar.** “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu 10-cu maddəsinə görə, *qanunvericiliyin dəyişdirilməsi ilə bağlı təminatlar Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə on il ərzində xarici investisiyaya investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir. Bu müddəa müdafiənin, milli təhlükəsizliyin və ictimai qaydanın təmin olunması, kredit və maliyyə, ətraf mühitin, əhalinin əxlaq və sağlamlığının mühafizəsi barəsində Azərbaycan Respublikası qanunvericiliyinin dəyişdirilməsinə şamil edilmir.*

Bu maddə xarici investor investisiyalar həyata keçirilən zaman mövcud olan qanun 10 il ərzində qüvvədə olmasına ümumi təminat verməklə sabit hüquqi rejimi müəyyənləşdirilməsi üçün əsaslar yaratsa da, sonrakı bəndlə istisna hallar müəyyənləşdilir. İstisna olaraq sadalanan hallar arasında *müdafiənin, milli təhlükəsizliyin və ictimai qaydanın təmin olunması, ətraf mühitin, əhalinin əxlaq və sağlamlığının mühafizəsinə* digər ölkələrin qanunvericiliyində də rast gəlinsə də, həmin qanunvericilikdə *kredit və maliyyə ilə bağlı hallar* nəzərdə tutulmur. Ümumiyyətlə isə qanunda təsbit olunan istisna hallar qeyri-müəyyənlik yaratmaqla yanaşı dövlətin götürdüyü öhdəliyin üzərinə şübhə salır.

Bır sıra ölkələrin qanunvericiliyində bu təminata görə xarici investisiyalı kommersiya təşkilatları və xarici investorlar sərmayə qoyan zaman mövcud olmuş valyuta, vergi, gömrük tənzimlənməsində sonradan pisləşməyə doğru dəyişiklik baş verərsə o xarici investorlara şamil olunmayacaq. **Buna sabitləşdirmə razılaşması da deyilir.** Sabitləşmə razılaşması o deməkdir ki, investisiyaların öz xərcini ödəmə dövründə sahibkarlıq fəaliyyəti üçün qadağalar və məhudiyyətlər, vergi və gömrük öhdəliklərinin artırılması ilə bağlı dəyişikliklər baş verərsə, xarici investor tərəfindən investisiya layihəsinin maliyyələşdirilməsi tarixinə olan vəziyyət əsas götürülür.

Sabitləşdirmə razılaşması aşağıdakı investorlara tətbiq olunur:

- Nizamnaməsində xarici investisiyaların payı 25 faizdən çox olan kommersiya təşkilatlarına;

- Nizamnamə kapitalındakı payından asılı olmayaraq prioritet investisiyaların reallaşdırılmasına cəlb edilmiş kommersiya təşkilatları;

Bundan başqa aşağıdakı dəyişikliklər bu qaydalara tabe olmir.

- Xarici ticarət fəaliyyəti zamanı resublikanın iqtisadi maraqlarının qorunması tədbirləri çərçivəsində tətbiq edilən gömrük rüsumları;
- Respublika ərazisində istehsal olunmuş məhsullara görə tətbiq olunan əlavə dəyər vergisi, aksizlər, vergilər ;
- Sosial ayırmalar.

Təklif olunur ki, xarici investisiyalı kommersiya təşkilatları və xarici investorların biznes şəraitinə onların qeydiyyatından başlayaraq bağlanmasına qədərki fəaliyyətini əhatə edən qanunvericilik aktlarında dəyişiklər təsir etdiyindən sabitləşdirmə razılaşmasında bu halların hamısı nəzərdə tutulsun, eləcə də qanunvericilikdə təsbit olunmuş istisna hallardan kredit və maliyyə sözləri çıxarılsın və digər halların hüquqi izahatı verilsin.

**Milliləşdirmə və rekvizisiya ilə bağlı təminatlar.** *Qanunun 11-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında xarici investisiya, Azərbaycan Respublikasının xalqına və dövlət mənafelərinə zərər vuran müstəsna hallar istisna olmaqla, milliləşdirilmir. Milliləşdirmə haqqında qərarı Azərbaycan Respublikasının Milli Məclisi qəbul edir. Təbii fəlakət, qəza, epidemiya, epizootiya və fövqəladə xarakter daşıyan başqa hallar istisna olmaqla, xarici investisiya rekvizisiya edilmir. Rekvizisiya haqqında qərarı Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir. Milliləşdirmə və rekvizisiya tədbirləri görüldükdə xarici investora təxirə salınmadan müqabil və səmərəli kompensasiya ödənilir.* Bu maddənin 1-ci hissəsi ilə dövlətin üzərinə götürdüyü öhdəliklər normal hesab oluna bilər. Lakin, Azərbaycan xalqına və dövlətinə zərər vuran halların özü qeyri-mücərrəd olduğundan bu hissə əlavə hüquqi izahatı zəruri edir. Burda narahatçılıq yaradan digər məqam kompensasiyaların müqabil və səmərəliliyinin necə ölçülməsidir. Bir çox ölkələrin milli qanunvericiliyində xarici investisiyalı kommersiya təşkilatlarının və xarici investorların əmlakının milliləşdirməsi zamanı milliləşdirilən əmlakın dəyəri və digər zərərlər ödənilir. Rekvizisiya zamanı isə xarici investisiyalı kommersiya təşkilatlarına və ya xarici investorlara rekvizisiya olunan əmlakın dəyəri tam ödənilir. Eyni zamnda həm milliləşdirmə və həm də rekvizisya zamanı mübahisələr

yaranarsa xarici investisiyalı kommersiya təşkilatlarının və xarici investorları məhkəməyə müraciət etmək hüququ da bu qanunla tanınmalıdır.

Bunlarla yanaşı, mövcud qanunvericilik xarici investorlara aşağıda göstərilən əlavə hüquqi təminatlar verilməlidir:

Xarici investorların Azərbaycan Respublikası ərazısındə fəaliyyəti zaman qarşılaşdıqları mübahisələr Azərbaycan Respublikasının iqtisadi məhkəmələri ilə yanaşı beynəlxalq arbitraj məhkəmlərində həll edilməsinə təminat verilməlidir. Azərbaycan Respublikası dövlətlərarası, hüquqi və fiziki şəxslərarası investisiya mübahisələrinin tənzimlənməsinə dair beynəlxalq konvesnisyyaya qoşulub.

**Xarici investorun Azərbaycan Respublikası ərazisində qazandığı mənfəətin və digər ona bərabər hesab edilən pul məbləğlərinin ölkə daxilində istifadəsinə və ölkə xaricinə köçürülməsinə təminat.** Bu təminat özündə xarici investorun qazandığı gəlir və mənfəətdən təkrar investisiya məqsədi ilə sərbəst istifadə etmə və ya onu vergilər ödənildikdən sonra maneəsiz olaraq xarici köçürmə hüququnu təsbit edir.

Belə gəlirlərə daxildir:

- Mənfəət növündə investisiyalardan gəlirlər, dividentlər və digər mükafatlar;
- Müqavilə və digər sazişlərdəki öhdəliklərin icrası zamanı əldə edilmiş pul məbləğləri;
- Xarici investisiyalı kommersiya təşkilatlarının və onların filiallarının ləğvi zamanı, həmçinin invesisiya olunmuş əmlakdan intellektual mülkiyyət hüquq istisna olmaq uzaqlaşdırma zamanı əldə olunmuş pul məbləğləri,
- əmlakın milliləşdirilməsi və rekvizisiyası zamanı ödənilmiş kompensasiyalar.

**Xarici investora əmlakını, sənəd və elektron daşıyıcılar formasında informasiyaırını manesiz olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarmaq hüququna təminat.**

Azərbaycan Respublikası sərhədlərində əmlakın və infomasiyanın material daşıyıcılarının qeyri-tarif, kvota, lisenziya qoyulmadan çıxarılması təmin edilməli və bu istiqamətdə maneələr yaradılmamalıdır.

Lakin mütləq olaraq malların nəzarətsiz və məhdudiyyətsiz olaraq ölkədən çxıarıkması yolverilməzdir. Odur ki, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq aşağıdakı sənədləşdirilmiş informasiyaların ölkədən çıxarılması yolverilməzdir:

- dövlət sirri və digər məxfi informasiyalar;
- Arxiv fondu;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmuş dugər sənədləşdirilmiş informasiyalar.

**Xarici investorun torpaq ərazisi, digər təbii resurslar, binlar, tikililər və digər tərpənməz əmlak üzərində hüquqlarına təminat.**

11 dekabr 1998-ci il tarixli "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa[15] görə, **A**zərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər bu Qanunda və torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada torpaq icarəçisi ola bilərlər. Lakin, Qanunun digər maddəsinə görə, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, xarici hüquqi şəxslərə, beynəlxalq birliklərə və təşkilatlara, habelə xarici dövlətlərə icarəyə verilmiş torpaqlar onların xüsusi mülkiyyətinə verilə bilməz.

**Dövlət orqanları tərəfindən keçirilmiş qeyri-qanuni tədbirlər nəticəsində zərərçəkmiş xarici investorlara kompensasiya ödənilməsinə təminat.** Bu təminat hüququ da mövcud qanunvericilikdə təsbit olunmalıdır. Odur ki, Azərbaycan Respublikasında dövlət orqanlarının rəhbər şəxslərinin vəzifə səlahiyyətlərindən istifadə edərək, investorlara, eləcə də xarici investorlara zərər vurulması, onlara məxsus olan əmlakın qeyri-qanuni yollarla ələ keçirilməsi faktlarının mövcudluğunu nəzərə alaraq, mövcud qanunvericilikdə ekspropriasiya ilə təminatların da təsbit olunması məqsədəmüvafiq olardı.

[15] http://www.taxes.gov.az/modul.php?name=qanun&news=989

**Xarici investisiyalı müəssisələrin dövlət qeydiyyatına təminat.** Hüquqi şəxslərə dair dövlət reyestri hüquqi şəxslər və onların təsisçiləri barədə ümumi məlumatı daxil edir. Mülki məcəllənin müddəalarına əsasən hüquqi şəxslərə dair dövlət reyestri açıq elan edilib və hər bir maraqlanan tərəf qeydiyyat üçün təqdim olunan sənədlərin surətini ala bilər. Dövlət qeydiyyatı 5 gün ərzində keçirilir. Ədliyyə nazirliyində qeydiyyatı keçəndən sonra şirkət vergilər nazirliyi və dövlət statistika komitəsində də uçota alınmalıdırlar. Xarici investisiyalı şirkət qeydiyyatdan keçən kimi lizensiya tələb olunmayan sahələrdə kommersiya ilə məşğul ola bilərlər. "Kommersiya sirri" haqqında Azərbaycan Respublikası Qanununda edilmiş dəyişikliklərə görə[16], Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən şirkətlərin təsis sənədlərində əksini tapan məlumatlar, vergi ödənişləri, özəlləşdirmə şərtləri və sair məlumatlar məxfi sayılır, yalnız birtərəfli qaydada onların özləri tərəfindən açıqlana bilər.

**Sərbəst valyuta əməliyyatlarının aparılmasına təminat.** Qanunda göstərilir ki, xarici investorların valyuta ilə əməliyyatları Azərbaycan Respublikasının valyuta tənzimlənməsi haqqında qanunvericiliyi ilə tənzimlənir. Azərbaycanın Mərkəzi Bankı valyuta tənzimlənməsinə dair mübadilə siyasətini müəyyən etməyə və təlimatları qəbul etməyə müvəkkil olunduğundan bu zaman müstəsna hüquq ona məxsus olur. Bu isə yenə də xarici investorları yalnız qanunlardan deyil, həm də Mərkəzi Bank kimi instututlardan asılı vəziyyətə salır. Məsələn, Qanunun 24-cü maddəsində göstərilir ki, *Azərbaycan Respublikasının ərazisində xarici investisiyalı müəssisələrin hesablaşma zamanı xarici valyutadan, habelə xarici valyuta şəklində tədiyə sənədlərindən istifadə etməsinə Azərbaycan Respublikasının valyuta tənzimlənməsi haqqında qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yol verilir.* Valyuta tənzimlənməsi haqqında qanunvericiliy' görə Azərbaycan Respublikası ərazisində Mərkəzi Bankın xüsusi lisenziyası olmadığı halda bütün ödəmələr manatla həyata keçirilir. Göründüyü kimi xarici investorun hesablaşma zamanı xarici valyutadan istifadə hüququnu Mərkəzi Bank məhdudlaşdıra bilər.

Baxmayayaq ki, əmtəələrin və xidmətlərin Azərbaycana idxalı ilə bağlı rezidentlər və qeyri-rezidentlər tərəfindən xaricə göndərilən avanslara dair pul məhdudiyyətləri Mərkəzi Bank tərəfindən ləğv olunub, "Valyuta tənzimlənməsi haqqında" qanunvericiliyi görə avans ödənişləri veriləndən sonra əmtəələr Azərbaycana 180 gün ərzində çatdırılmalıdırlar.

**Daşınmaz əmlak dair hüquqlarına təminat.**

Azərbaycan qanunvericiliyi aşağıda göstərilən daşınmaz əmlaka dair hüquqları təmin edir:

---

[16] http://vn.taxes.gov.az/qanun/q224.html

- mülkiyyət
- icarə
- istifadə

Sahibkarlıq konsepsiyası mülkiyyət hüququnu, istifadə / gəlir əldə etməni və torpağın üçüncü tərəfə ötürülməsini nəzərdə tutur. Torpaq mülkiyyətçisi qismində Azərbaycan Respublikası, bələdiyyələr və Azərbaycanın fiziki və hüquqi şəxsləri ola bilərlər. Xaricilər (fiziki və hüquqi şəxslər) və vətəndaşlığı olmayan şəxslər torpaq mülkiyyətçisi ola bilməzlər. Torpağı verilmiş kreditə görə girov, hədiyyə və ya vərəsəlik kimi hüquqi üsullar nəticəsində alan xaricilər 1 il ərzində mülkiyyət hüquqlarını 3-cü tərəfə verməlidirlər. Əks halda torpaq dövlətin və ya müvafiq bələdiyyənin mülkiyyətinə keçəcək. Buna baxmayaraq xaricilər torpağı uzunmüddətli icarəyə götürə bilərlər.

## 4. Xarici investisiyaların qorunması haqqında qanunun təkmilləşdirilməsiylə bağlı tövsiyələr

**Siyasi mühitin əhəmiyyəti və başlıca şərtlər.** Güclü biznes və investisiya mühitini dəstəkləyən siyasi şəraitin yaradılmasında ən əhəmiyyətli amillər aşağıdakılardır.

1) Təhlükəsizlik;

2) Xarici investorların hüquqlarının qorunması və müvafiq zəmanətlərin verilməsi;

3) Qanunvericilikdə sabitlik;

4) Şəffaflıq;

5) Korrupsiyadan azad olma;

6) Yaxşı idarəetmə.

Hətta ölkələrin təhlükəsiz şəraitdə olduğu və hökumətlərin bir-birini nizamlı tərzdə əvəz etdiyi halda belə, şirkətlər öz hüquqlarının qorunmasına əmin olmaq istəyir. Hər bir investor əmin olmalıdır ki, investisiya yatırımı təhlükəsizdir, ədalətli və qərəzsiz davranış təmin edilir və münaqişələr ədalətli şəkildə həll ediləcək.

İnvestorların görmək istədiyi müəyyən təminatlar və zəmanətlər var. İnvestorun prinsipial maraqlarına aşağıdakı hüquqların təmin olunması daxildir:

1) Xüsusi olaraq, müqavilələrin icrası və dövlət borclarının ödənilməsi məsələlərində xarici və yerli investorlar üçün bərabər və ayrı-seçkiliksiz davranış;

2) Qanunla icazə verilən və tənzimlənən tərzdə bütün korporativ qurumların nəzdində olan bütün sektorlara hər bir formada (birbaşa, portfel və s.) investisiya yatırmaq;

3) Milliləşdirmə, özgəninkiləşdirmə və oxşar nəticələrə gətirib çıxaran hər hansı digər tədbirlərin görülməyəcəyinə və bu cür şəraitin milli təhlükəsizlik səbəblərindən zəruri olduğu halda ədalətli kompensasiyanın təmin ediləcəyinə zəmanət;

4) Qanunla tələb olunan vergilərin və ödənişlərin ödənilməsindən sonra gəlirləri xarici valyuta ilə xarici ölkələrə köçürmək;

5) Qanunla tələb olunan şərtlərə müvafiq olaraq investisiyaların stimullaşdırılması tədbirlərindən faydalanmaq;

6) Torpaq üzərində mülkiyyət hüququ;

7) Əqli və sənaye mülkiyyətinin qorunması;

8) Münaqişələri ədalətli və müstəqil olan yerli məhkəmədə həll etməyi və ya yerli, yaxud beynəlxalq arbitraj məhkəməsinə müraciət etməyi qərara almaq hüququ.

Ölkələrin görə biləcəyi tədbirlər aşağıdakılardır:

1) İnvestorların hüquqlarının siyahısını və ya investorun təmin edilmiş hüquqi müdafiəsini əks etdirən xarici investisiyalar haqqında qanunu işləyib hazırlmaq;

2) Arbitraj Qərarlarının Qəbul və İcra Edilməsi haqqında Birləşmiş Millətlər Konvensiyası, Dünya Bankının İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzi və İƏİT-in Beynəlxalq İnvestisiyalar və Çoxtərəfli Müəssisələr Haqqında Bəyannaməsi kimi investor hüquqlarının, mülkiyyət hüquqlarının qorunmasını dəstəkləyən çoxtərəfli müqavilə və sənədləri imzalamaq;

3) İnvestisiya müdafiəsinin və zəmanətlərinin təsvir edildiyi ikitərəfli və çoxtərəfli investisiya razılaşmalarını işləyib hazırlmaq;

4) Özgəninkiləşdirmənin tətbiqini ciddi surətdə məhdudlaşdıran və tənzimləyən, həmçinin özgəninkiləşdirmə halında ədalətli kompensasiyanı təmin edən xüsusi qanunvericilik işləyib hazırlamaq;

5) Xarici vətəndaşların şəffaf və məqsədəuyğun şəkildə torpaq sahələri almasına və ona sahib olmasına və ya uzun müddətə icarəyə götürməsinə imkan yaratmaq.

6) Milliləşdirmə, rekvizisiya və ekspropriasiya ilə bağlı təminatlar vermək.

## İstifadə olunmuş ədəbiyyatların siyahısı


1. “Xarici investisiyaların qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu
2. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu
3. “Kommersiya sirri haqqında” Azərbaycan Respublikasının Qanunu
4. OECD Benchmark Definition of Foreign Direct Investment Fourth Edition 2008
5. 2014-cü ildə ölkənin sosial-iqtisadi inkişafi, Respublika qəzeti, 13 fevral 2015-ci il
6. Vergilər Jurnalı, Azərbaycan Respublikası Vergilər Nazirliyi, 2015
7. Ölkə iqtisadiyyatın yönəldilmiş investisiyalar, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi
8. Dövlət Statistika Komitəsinin sosial-iqtisadi inkişafa dair illik məcmuələri